Respubliqamızın Meqri, Şəmşəddin, Düzkənd, Qalinino, Əştərək və Martuni rajonlarında spequljasija ilə zəif mübarizə aparılır. Martuni rajonunun Dzoragjuq kənd qolxoz yzvlərindən Siraqan Vosqanjan, Aram Aqopjan, Qurgen Muradjan və Vaqarşaq Manuqjan, qolxozun qızğın iş dövründə qolxozcu adından istifadə edərək ijun ajında spequljasija ilə məşğul olmuşlar. Bunlar jajlaq jerlərindən və kəndlərdən produqt və qojunlar alaraq Jerevan şəhərində satır xüsusi alverlə məşğul olmuşlar. Nəticədə bu məsələ şəhər milis idarəsi tərəfindən bu adamların jalnız ijun ajında 60 qojun kəsib satdıqları ajdınlaşmışdır. Şəmşəddin rajonunun Touz kəndlilərindən, Artaşes, Arutun və Hambarsum Jesejan 1938-çi ildən Jerevan şəhərinə gələrək hec bir jerdə işləməjə getməjib şəhərlər və kəndlərdən aldıqları malları (patefon, plastinqa, xalca, manufaqtura, qlijonqa və i. a.) sistematik olaraq kəndlərdə qolxozculara baha qijmətə satmışlar.

Jerevan univermaqında satıçılar arasında sijasi tərbijə işləri jaxşı qurulmamışdır. Univermaqın bə'zi işçiləri spequljantlarla mübarizə etmir, bə'zən özləri belə spequljasija ilə məşğul olmuşlar. Buna sübut olaraq 30-nəfərin spequljasija üçün işdən götürülməsi ola bilər. Spequljasija ilə məşğul olan, spequljant elementlərlə əlaqəsi olan və sovet tiçarəti işçisinin jüksək adının ləkələjən şəxsləri tiçarət şəbəkələrindən bundan sonra dəxi qovmaq lazımdır.

Zəhmətkeşlər, xüsusilə evdar qadınlar, vətənimizin qüvvət və qüdrətini möhkəmlətmək uğrunda tiçarət işçilərinə və milis orqanlarına jaxından kömək etməlidirlər. Jerevanda jaşajan Siranuş Hajrabetjanın spequljasija ilə sistematik olaraq məşğul olması haqqında şəhərin 3-çü milis şö'bəsinə siqnallar verilmişdir. Bu jaxınlarda milis şö'bəsi tərəfindən bunun evindən axtarış nəticəsində 40 metr jun parça, 9 800 manat nəqd pul və sairə tapılmışdır. Hajrabetjanın işi proqurora verilmişdir.

Spequljantlar indi masqalanırlar, aldıqları malları gizli jerlərdə, çürbəçür jollarla kücə buçaqlarında, həjət icində və başqa jerlərdə baha qijmətlə satmaqa calışırlar. Onlar çürbəçür dona girirlər, malları maqazinlərdə xüsusi adamlar vasitəsi ilə aldırırlar. Namuslu tiçarət işçiləri bunların hijləsini ajdınlaşdırdıqı zaman onlar bə'zən spequljantlar tərəfindən tə'qib edilir.

Sistematik olaraq maqazinlərdən sənaje malları alıb baha qijmətə satan Aşxen Manuqjan, Elizija Qazarjan və Nina Məmmədova maqazindən 5 dəfə mal alıb satdıqları jerdə milis şö'bəsi tərəfindən tutulmuşlar.

Axtarış zamanı bunların evindən 80 metr manufaqtura və 1.986 manat nəqd pul tapılmışdır.

Tiçarət işçiləri və milis orqanları spequljantları aşkar etməli, onları çiddi məs'ulijjətə cəkməlidirlər. Rajon proqurorluqu və xalq məhkəmələri spequljantların işlərinə tez baxmalı və onların haqqında çiddi tədbir görməlidirlər. Bu məsələ ətrafında Jerevan şəhər mərkəzi milis şö'bəsi xejli iş görmüşsədə ançaq, bu hələ azdır. Mərkəzi milis idarəsi maj ajında 75 və ijun ajında 78 spequljant mejdana çıxardaraq, bunların işlərini şəhərin rajon xalq məhkəmələrinə və proqurorluqa vermişdir. Bu spequljantların icərisində invalidlərin «Qrasnı zvezda» tikiş ərtelinin sədri ilə əlaqələri olan N. Bajazet kənd qolxozcularından Hajq Pepojan, Hajq Masisjan və Niqolaj Hambarjan vardır ki bunlar kənddə qolxoz işlərini buraxıb spequljasija ilə məşğul olmuşlar. Bunlar artelin sədri ilə əlbir olaraq, artelдən 25 min manatlıq mal götürüb kəndlər arasında sataraq 10 min manat qazanmışlar. Spequljantlar aşkara çıxarıldıqdan sonra axtarışda onların evindən 7.000 manatlıq sənaje malı və 4.800 manat nəqd pul tapılmışdır. Belə faqtlar coxdur. Qeyd etmək lazımdır ki, şəhərin rajon xalq məhkəmələrində spequljantların işinə zəhmətkeşlərin iştirakı ilə göstəriş məhkəməsi olmamışdır. Spequljasijanı aradan qaldırmaq üçün tərbijəvi rol ojnajan göstəriş məhkəmələri çiddi tədbirlərdən biridir.

Tiçarət təşkilatları, Ycynçy Stalin Beşilliji adına genişlənən sosializm jarışı bajraqını daha jüksəklərə qaldırmalı, bütün tiçarət işçilərinin staxanovçasına işləməsini əldə etməli, onlar arasında sijasi—tərbijə işini genişləndirməlidirlər.

Sovet tiçarətinin qəddar düşməni olan spequljasijanı tamamilə jox etməklə, zəhmətkeşlərə qultur tiçarət xidmətini nümunəvi təşkil etmək jolunda bolşevikçəsinə calışmaq lazımdır.

Sovet tiçarətini qajdaja salmaq və spequljasijaja qarşı mübarizə tədbirləri haqqında Ermənistan Xalq Tiçarət Qomissariatının və Jerevan Şəhər Partija Qomitetinin göstərişi əsasında sənaje mal satan maqazinlərinin iş saatlarının nəzərdən kecirməli, içtimai qontrol briqadaları jaratmalı və hər gün onlara praqtiki kömək etməlidir. Bu işdə rajon Partija Qomitetləri, Rajon Qomsomol Qomitetləri, həmkarlar təşkilatları, rajon sovetləri və onların seqsijaları və Jerevan Şəhər Sovetinin prezidiumu böjük məs'ulijjət daşıjırlar.

Spequljasija ilə amansız mübarizənin vaqtı coxdan catmışdır. Bunu bütün sovet xalqı, partijamız və hökumətimiz tələb edir. Məhz buna görə də spequljasija ilə mübarizə hər bir sovet vətəndaşının borcu və şərəf işidir.

Sovet tiçarəti işçilərindən namuslu calışmaq, partijamızın və hökumətimizin onlara göstərdikləri atalıq qajğısının və böjük e'timadı nümunəvi işlə doğrultmaq tələb olunur. Stalin joldaş partijamızın XVIII Qurultajındakı tarixi ma'ruzəsində daxili sijasət sahəsində partijanın vəzifələrindən biri də «...Fəhlələrin, kəndlilərin, intelligensijanın maddi və qultura vəzijjətini daha da jaxşılaşdırmaqı davam etdirməkdir»-dediji cox haqlıdır.

Bu mühüm iş sovet tiçarəti işçilərinin qarşısında jeni perspeqtivalar açır. Ona görə də onlar qultur sovet tiçarətini düzgün təşkil etməjə bütün qüvvələrini sərf etməli, spequljantlara qarşı mübarizəni kəskinləşdirməlidirlər.

Ə. Həbib.
M. Əskər.

## Məhsul toplanışına mane olan səbəbləri tezlikdə aradan qaldırmalı

Bu il məhsul jığımına və kənd təsərrüfat produqtları tədarükünə hazırlıq tədbirləri haqqında ESSR XQS və EQ(b)P MQ-nın 1939-çu il 21 ijun tarixli qərarı Qarabaqlar rajonunun ajrı-ajrı qolxozlarında geniş kütləviləşdirilməkdədir.

Rajonun partijalı və partijada olmajan bolşeviqləri qolxozcu və qolxozcu qadınları bu qərarın ətrafında toplaşaraq məhsulun itkisiz və vaqtında toplanılması üçün bütün qüvvələri səfərbərlijə almışlar.

Rajonun Cimən, Qarabaqlar, Şahablı və sairə qolxozları ot bicinini qurtararaq, taxıl məhsulunun toplanılması işinə başlamışlar. Rajonun daqlıq hissəsi qolxozlarından Gəlajsor, Gilanlar, Kolanlı, Əzizkənd, Gelçqın və sairə qolxozları gələcəkdə sosializm maldarlığının möhkəm jem bazası ilə tə'min etmək üçün ot bicininə qızğın başlamışlar. Gəlajsor qolxozu 30 min, Kolanlı 15 min, Canaxcı 32 min; Gilanlar kənd qolxozu 18 min baq ot bicməklə ot bicinini sürətli davam etdirirlər.

Rajonun bir sıra təşkilatları məhsul toplanışına hazırlıqda az iş görməmişlər. Belə ki, rajon qooperativ hej'əti və rajon selxozsnabı məhsul toplanışına aid olan kənd təsərrüfat alətlərinin vaqtında gətirilməsinə fikir verməmələrindən, hal-hazırda bir cox qolxozların xırmanda lazım olan bir cox kənd təsərrüfat alətlərinə ehtijacları vardır. Bundan başqa Rajqoop sədri Apqar Qarapetjan məhsul toplanışının başlanğıc dövründə qolxozcuları tarlada sənaje malı ilə tə'min etmək üçün səjjar qooperativlərin təşkil olunmasına fikir verməmişdir. Rajonun səhijjə şö'bəsi tarlalarda səhijjə punktları təşkil etməmişdir.

Məhsul toplanışındakı ilk noqsanları aradan qaldırmaq üçün rajqoop, səhijjə şö'bəsi və selxozsnab hərəkətə gəlməlidirlər.

M. Aqamalı

## Ermənistan qolxozcuları partija və hökumətin qərarlarını hərarətlə təbrik edirlər

VAQARŞABAD (ETA).— Rajonun qolxozcuları SSRI Xalq Qomissarları Sovetinin və YIQ (b) P Mərkəzi Qomitetinin «Qolxozlarda içtimai hejvandarlığın inkişaf etdirilməsi tədbirləri haqqında» SSRI Xalq Qomissarları Sovetinin və YIQ (b) P Mərkəzi Qomitetinin 8 ijul tarixli qərarı Qarabaqlar rajonunun qolxozlarında geniş surətdə müzakirə edilir. Hər jerdə qolxozcular həmin qərarı jekdilliklə bəjənərək, onun sosializm hejvandarlığının inkişaf etdirilməsi sahəsində böjük rol ojnajaçaqını qejd edirlər. Qolxozcular öt tədarükünün jeni qajdasının xüsusi olaraq təbrik edirlər; həmin qajdaja görə, bundan sonra öt tədarükünün miqdarı hejvanların miqdarına görə dejil, torpağın miqdarına görə müəjjən ediləcəkdir. Qolxozcular qejd edirlərki, öt tədarükü üzrə bu jeni sistem jaxşı fermalara malik olan və fermalarda hejvanların miqdarını ildən-ilə artıran qabaqcıl qolxozlar üçün doğrudan da əlverişli vəzijjət jaradacaq, jaxşı fermaları olmajan və hejvanların miqdarını artırmaqa calışmajan geridə qalmış qolxozlar isə onları jaxşı fermalar jaradan hejvanların miqdarını artırmaqa məcbur edəcəkdir.

Partija və hökumətin qərarına cavab olaraq, Qaraxac, Birəli, Çıqın və Millidərə rajonlarının bir sıra qolxozları bu ildən başlajaraq iri buynuzlu hejvanlar, qojunculuq və donuzculuq fermaları təşkil etməji qərara almışlar.

Mərkəzi Qomitetin və Xalq Qomissarları Sovetinin qərarlarını qolxozlarda geniş surətdə kütləviləşdirmək üçün rajon partija qomiteti aqtivlərdən bir coxunu kəndlərə göndərmişdir.

Rajon partija qomitetinin qərarı üzrə, Mərkəzi Qomitetin və Xalq Qomissarları Sovetinin qərarı ilk partija təşkilatlarının acıq jığınçaqlarında, həmcinin qolxozcuların ümumi jığınçaqlarında müzakirə ediləcəkdir.

***

QOTAJQ (ETA).— «Qolxozlarda içtimai hejvandarlığın inkişaf etdirilməsi tədbirləri haqqında» SSRI Xalq Qomissarları Sovetinin və YIQ (b) P Mərkəzi Qomitetinin qərarı cap edilən qəzetlər qolxozlarda əldən-ələ kecir. Qolxozcular həmin qərarla cox maraqlanırlar.

Qaputan, Kənkan, Car, Başgjuq, Aramus, Bəzəkli və digər kəndlərin qolxozcuları Mərkəzi Qomitetin və Xalq Qomissarları Sovetinin qərarını müzakirə edərək, öz fermalarında hejvanların miqdarını artırmaq və jeni fermalar təşkil etmək üçün vasitələr qejd edirlər.

***

QƏMƏRLI (ETA).— «Qolxozlarda içtimai hejvandarlığın inkişaf etdirilməsi tədbirləri haqqında» SSRI Xalq Qomissarları Sovetinin və YIQ (b) P Mərkəzi Qomitetinin qərarını rajonun qolxozlarında kütləviləşdirmək məsələsi EQ (b) P Qəmərli rajon qomitetinin bürosu tərəfindən ijulun 11-də müzakirə edilmişdir. Xalq Qomissarları Sovetinin və Mərkəzi Qomitetin qərarını qolxozcuların iştirakı ilə müzakirə etmək üçün rajon partija qomitetinin qərarı üzrə ijulun 11-də və 12-də ilk partija və qomsomol təşkilatlarının acıq jığınçaqları cläçaqdır. Ondan sonra həmin məsələ qolxozcuların ümumi jığınçaqlarında müzakirə ediləcəkdir.

Hejvandarlığın inkişaf etdirilməsi tədbirləri haqqında partija və hökumətin qərarlarını tarlalarda, briqadalarda və manqalarda oxujub ajdınlaşdırmaq üçün aqtivdən 23 nəfər kəndlərə göndərilmişdir.

***

ƏŞTƏRƏK (ETA).— «Qolxozlarda içtimai hejvandarlığın inkişaf etdirilməsi tədbirləri haqqında» SSRI Xalq Qomissarları Sovetinin və YIQ (b) P Mərkəzi Qomitetinin 8 ijul tarixli qərarı Əştərək rajonunun qolxozlarında müzakirə edilir. Agitatorlar, müsahibəci oxuçular partija və hökumətin qərarını tarlalarda, manqalarda və briqadalarda oxujub kütləviləşdirirlər.

Qolxozlarda partija və qomsomol təşkilatlarının partija və hökumətin qərarının müzakirəsinə həsr olunmuş acıq jığınçaqlar kecirilmişdir.

## GERILIJƏ SON QOJMALI

Şurabad (Amasija) kənd padrajon qooperativi bücün üçün 1.300 kərənti, 735 java, 550 dırmıx, 1.160 büküv v. s. lazım olan ləvazımat əldə edərək, qolxozlara vaqtında catdırmışdır.

Ançaq qejd etmək lazımdır ki, qooperativ hej'əti ikinci qvartalın dövlət planlarının ödənilməsi işində geri qalmışdır. Qooperativ hej'ətinə ikinci qvartalda verilmiş 50 sentner öt əvəzinə 45 sentner, 28 gön əvəzinə 20 gön, 600 dəri əvəzinə 265 dəri, 90 min jumurta əvəzinə 88.853 jumurta, 2.000 kiloqram azad jun tədaryky əvəzində 350 kiloqram və 80 kiloqram mal tyky əvəzinə 40 kiloqram tədaryk olunmuşdur.

Bundan başqa qooperativ hej'ətinə verilmiş kəhnə rezin, rənkli metall, qara metall v. s. tədaryklər ikinci qvartalda 15-20 prosentdən artıq ödənilməmişdir. Dövlət tədaryklərinin jüqlanması işində Jenijol, Quzukənd, Gölly v. s. kənd qooperativ işçiləri jaxşı calışırlar. Onlar öz qvartal planlarını artıqlıqla ödəmişlər.

Ançaq Ilanlı, Dyzkənd, Civinli, Qarabulaq v. s. kənd qooperativ işçiləri ikinçi qvartalın tədaryk planlarını kəsirlə ödəmişlər.

Şurabad kənd padrajon qooperativ hej'əti üçünçü qvartalda bu gerilijə son qojmalıdır.

H. Lətif.

## Sovet tiçarətini daha da genişləndirməli

Jerevanın № 5 Baqaleja dükanı birinçi qvartal mal dövrijjəsi planını 116,3 prosent, aprel ajı planını 127,3 prosent, maj ajınınkını isə 101 prosentlə jerinə jetirmişdir.

Dükan işçiləri Ycynçy Stalin Beşilliji adına sosializm jarışına qoşularaq keciçi bajraq almışlar. Dükanda calışan 32 nəfər işçidən 13 nəfəri staxanovcudur. Bu dükanın qonditer şö'bəsi müdiri Harutjun Nersesjan joldaş qultur tiçarətin genişlənməsində çiddi calışır. Onun şö'bəsi ajlıq planı 123,3 prosentlə ödəmişdir. Qlastronom şö'bəsi də ajlıq planı 135,6 prosentlə jerinə jetirmişdir.

Qeyd etmək lazımdır ki, burada israfçılığa və mənimsəmələrə geniş jol verilmişdir. 1939-çu il janvarın 1-də mənimsəmələr 51.022 manat 77 qəpək təşkil edirdi ki, bu mənimsəmələrdən 11.574 manat 35 qəpək geri alınmış, 35.448 manat 17 qəpək isə hələ bu günə qədər geri alınmamışdır. Dükan işçilərindən Barisova Qalja (qassir) 1.239 manat, Vartanjan Haqop 6.654 manat 63 qəpək, Marqarjan Vahan 5.892 manat 75 qəpək, Gevorqjan Levon 1.294 manat pul mənimsəmişdir.

1937-çi ildən pul mənimsəjənlər məhkəməjə verilmişdirsədə, indijə qədər onlar haqqında qəti elcylər ələ alınmamışdır.

Dükanda bir sıra sənaje malının qijmətləri joxdur. Bu dükanın işçiləri arasında agitasija-propaqanda işləri də pis təşkil edilmişdir.

Ç. Misgərov.

## Jeməkxananı qajdaja salmalı

Qrasnoselo rajon qooperativ hej'əti rajon mərkəzində olan jeməkxananın qajdaja salınmasında və burada zəhmətkeşlərin ehtijaclarını tə'min etmək işində jarımaz iş aparır. Bu barədə «Qommunist» qəzetində də siqnal verildijinə baxmajaraq hələ indijə qədər jeməkxana qajdaja salınmamışdır.

Jeməkxananın müdiri proqulculuqa qarşı mübarizə aparmır. Belə ki, jeməkxana gündüz saat 2-30-da açılaqaq halda, 3-30-da açılır, 24 ijunda bu jeməkxanada 2 saat işə geç başlanmışdır. Jeməkxanada hazırlanmış xörəklərin kejfijjəti aşağıdır.

Jeməkxananın bufetcisi Qriqor pivəjə su qatır, 200 qram cəkilmiş cörəji joxladıqda 150 qram gəlmişdir. Bundan başqa 15 qəpəjə aldıqı jumurtanı 55 qəpəjə satır.

Bu rajonda hər çürə produqtun bol olmasına baxmajaraq, jeməkxana müdirinin zəif işləməsi nəticəsində bu jeməkxanada jaq, kərə, bal, pənir və sairə produqtlar tapılmır.

Qrasnoselo rajon qooperativ hej'əti, göstərilən noqsanlara son qojmalıdır.

Joxlajan.

Şəkildə: Xlopsbütün № 9 maqazasının işçilərindən Işxanjan Setraq və Qlazarjan Hribsiq joldaşlar istehlakçılara manufaqtura satırkən.

Foto: B. Qazazjanındır.

---

«Ysjana marqsistçəsinə, jə'ni bir inçəsənət kimi janaşmaq üçün, biz ejni zamanda bir dəqiqə belə itirmədən ysjancı dəstələr ştabı təşkil etməli, qüvvələri jerləşdirməli, sədaqətli polqları ən mühüm məntəqələrə göndərməli, Aleqsandrinqanı əhatə etməli, Petropavlovqanı tutmalı, baş ştabı və hökuməti həbsə almalıjıq, junkerlərə və Diqaja divizijaja qarşı elə dəstələr göndərməlijik ki, bu dəstələr həlak olmaqa, lakin düşmənə şəhərin mərkəzinə irəlilməjə imkan verməməjə qadir olsunlar; biz silahlı fəhlələri mobilizasija etməli, onları son şiddətli vuruşmaja cağırmalı, bilatə'xir teleqrafı və telefonu tutmalı, öz ysjan ştabımızı mərkəzi telefon stansijası janında jerləşdirməli, onu telefon vasitəsilə bütün zavodlarla, bütün polqlarla, silahlı mübarizənin bütün məntəqələri ilə birləşdirməlijik və i. a.» (Lenin, əsərləri, XXI cild, səh. 199).

Leninin göstərişlərinə ujqun olaraq, Stalin joldaşın bilavasitə direqtivaları ilə hərəkət etməklə, oqtjabrın 24-də səhərdən oqtjabrın 25-də səhər saat 10-dək baş ştabdan və hökumətdən başqa Leninin sajdığı bütün məntəqələr tutulmuşdu. Ştab axşam tutuldu, hökumət isə oqtjabrın 25-də geçə həbsə alındı.

Stalin joldaş imperializm epoxasında qapitalizm inkişafının müntəzəm olmaması haqqında marqsizm teorijasını, ajrıca götürülmüş bir ölkədə sosializmin qələbəsi mümkün olduqu haqqında teorijanı daha da inkişaf etdirdi və sosializmin ejni zamanda bütün ölkələrdə qələbə calmasının mümkün olmadığını bütün qüvvəsi ilə qejd etdi.

Stalin joldaş imperializmin və dünja proletar revoljusijası inkişafının hazırkı etapına analiz verərək sübut etdi ki, «proletariatın zorakılıqla etdiji revoljusija, proletariat diqtaturası, istisnasız olaraq bütün imperialist dövlətlərdə sosializmə doğru hərəkətin labüdd və mütləq şərtidir» («Oppozisija haqqında» səh. 383); silahlı ysjan «fəhlə sinfi üçün revoljusion məqsədə ujqun bir tədbirdir».

Silahlı ysjan haqqında marqsizm-leninizm nəzərijjəsi Böjük Oqtjabr Sosialist Revoljusijasının təcrübəsində parlaq surətdə təsdiq olundu.

Qommunist Internasionalının VI qonqressi (1928-çi il) bu təcrübəni ümumiləşdirərək silahlı ysjan kecirilməsi haqqında aşağıdakı nəticəni jazmışdır: «Ysjan ilə ojun ojnamaq olmaz; ysjan qaldırdıqda hüçümu bütün energija ilə, düşməni qəti əzinçəjədək davam etdirmək lazımdır. Ysjan zamanı tərəddüd və qətijjətsizlik bütün silahlı ysjanın darmadağın olmasına bərabərdir; başlıca qüvvələri düşmənin başlıca qüvvələrinə qarşı göndərmək lazımdır. Calışmaq lazımdır ki, həlledici momentdə, həlledici məntəqədə üstünlük proletariatın tərəfində olsun, ysjanın mümkün qədər geniş territorijaja tə'çili surətdə jajılması lazımdır. Ysjana bir inçəsənət kimi baxmaq lazımdır, lakin o, təkcə hərbi problema dejil, hətta birinçi növbədə sijasi problemadır. Ona ançaq revoljusion partija rəhbərlik edə bilər. Partija ysjan zamanı bütün öz fəalijjətini silahlı mübarizənin tələblərinə tabe etməlidir» (Qominternin VI qonqressi, stenoqrafik hesabat, VI buraxılış, səh. 97).

Silahlı ysjan haqqında 1917-çi ilin oqtjabr vuruşmalarının təcrübəsi ilə parlaq surətdə təsdiq edilmiş marqsizm - leninizm nəzərijjəsi də müdrik Stalin kitabı olan «YIQ(b)P Tarixinin Qısa qursu»-nda toplanmış bütün bolşevizm təcrübəsi kimi, bütün ölkələrin proletariatına qapitalizm kələlijindən xilas olmaqın jeganə düzgün jolunu göstərir.

S. Ol. DUBROVSQI.

# Ingiltərə parlamentində Cemberlenin çıxışı

LONDON, 10 ijul (TASS). Rejter agentliji xəbər verir ki, Ingiltərə nazirlər sovetinin sədri Cemberlen parlamentdə Dansiq məsələsi haqqında çıxış etmişdir.

Cemberlen, Ingiltərə hökumətinin Dansiq məsələsi haqqında Polşa və Fransa hökumətləri ilə sıx əlaqə saxladığını qeyd edərək demişdir:

«Irq nəqteji-nəzərindən Dansiq, demək olar ki, bütünlüklə german şəhəridir. Lakin əhalinin jaxşı gyzərənə, xeyli dərəcə Polşa tiçarətindən asılıdır. Visla çayı Polşanın Baltiq dənizinə çıxan jeganə su yoludur. Buna görə bu çayın aqzında olan portun Polşa üçün çox böyük strateji və eqonomik əhəmijjəti vardır. Əgər Dansiqdə başqa bir dövlət öz jerini möhkəmləndirmiş olarsa istədiji zaman Polşanın dəniz yolunu bloqadaja ala bilər, eqonomik və hərbi çəhətcə Polşanı boğa bilər. Azad Dansiq şəhərinin indiki statutu (vəzijjəti) üçün məs'ulijjət daşıyanlar bunu gözəlçəsinə başa düşmüşlər və statutda bu şəraiti nəzərə almaq üçün mümkün olanı etmişlər. Bir də Dansiqdə german əhalisinə zülm edildijindən bəhs etmək belə artıqdır. Əksinə olaraq, azad şəhərin idarəsi nemeslərin əlindədir və bu çəhətcə bə'zi məhdudlaşdırmalar şəhərin vətəndaşlarının azadlığını məhdudlaşdıraçaq tədbirlərdən dejildir. Indiki vəzijjət jaxşılaşdırıla biləçək olsa da, bu vəzijjətə əsasən ədalətsiz və ya məntiqsiz bir şej kimi baxmaq olmaz. Indiki vəzijjətin 1944-cü ilə qədər saxlanması üçün Germanija qanunlarının özü Pilsudski ilə 10 il müddətinə bağladığı müqavilə üzrə qarantija vermişdir. Görünür, Germanija bu il mart ajına qədər hesab edirdi ki, Dansiqin statutu nəticə e'tibarilə jenidən baxılmalı tələb edirdisə də, bu məsələ tə'cili dejildir və ya çiddi ixtilaf doğura biləçək məsələ dejildir. Lakin mart ajında Germanija hökuməti bə'zi arzılar şəklində təklif irəli sürdükdə və bununla bərabər mətbuatda kampanija aparılmağa başladığda Polşa hökuməti başa düşdü ki, məsələnin birtərəfli həll olunması qarşısında qalə bilər və buna bütün qüvvəsi ilə müqavimət göstərməlidir. Polşanın qarşısında Avstrija, Çexo-Slovakija və Memel təçrübəsi durmuş idi. Buna ujğun olaraq Polşa hökuməti Germanijanın nəqteji-nəzərini təsdiq etməkdən boyun qaçırdı və özü, Germanijanın maraqlı olduğu problemaların həll edilə biləçəjini təklif etdi. Bundan başqa Polşa martın 23-də bə'zi müdafiə tədbirləri gördü. Germanijaja çavab, martın 26-da Berlinə göndərildi.

Mən palatanın nəzərini bu iki tarixə çəlb edirəm. Germanijada iddia edirlər ki, Ingiltərə hökumətinin verdiji qarantija Polşa hökumətinə juxarıda sıralədijim tədbirləri görməkdə kömək etmişdir Halbuki, biz bu qarantijanı jalnız martın 31-də vermişik. Martın 26-nadək bu qarantija haqqında Polşa hökuməti hətta işarə ilə bir mə'lumat belə almamış idi. Dansiqdə baş verən son hadisələr labüdd olaraq belə bir qorxu törədir ki, Polşanı və başqa dövlətləri olmuş faqt qarşısında qoymaq üçün Dansiqin gələcək statutunu gizli metodlarla təşkil edilən birtərəfli hərəkətlər vasitəsilə müəjjən etmək nijjətləri vardır. Belə şəraitdə Polşanın əvvəlki vəzijjəti bərpa etmək üçün görəcəji hər bir tədbiri isə, Polşanın aqressija, aqtı kimi göstərmək nəzərdə tutulur. Əgər Polşanın bu çür hərəkətlərinə başqa dövlətlər kömək etmiş olarlarsa bunları da Polşaja kömək etməkdə və Polşanı qüvvət tətbiq etməjə sövq etməkdə təqsirləndirmək olardı. Əgər hadisələrin gedişi bu gipotezalarda gümان edildiji kimi olarsa, palata yazıları başa düşərlər ki, Dansiq problemasına, heç bir hədə qarşısında qalmamış olan Dansiq əhalisinin hüquq və azadlığına aid sırf jerli bir məsələ kimi baxınaq olmazdı. Əksinə olaraq, belə bir iş, Polşanın milli varlığına və istiqlalijjətinə aid olan daha çiddi bir problemanı dərhal qarşıja qoymuş olardı. Biz Polşaja qarantija vermişik ki, onun istiqlalijjəti üçün acıqdan-acıqa qorxu törəndiji zamanda,—bütün milli qüvvələri ilə müqavimət göstərməji lazım sajdığı bir qorxu törəndiji zamanda ona kömək edərik. Biz öz təəhhüdlərimizi jerinə jetirmək qətijjətində möhkəm durmuşuq.

Mən dedim ki, Dansiqin indiki statutu öz əsasına görə ədalətsiz və ya məntiqsiz sajıla bilməz. Lakin bu statut jaxşılaşdırıla bilər. Statutun jaxşılaşdırıla biləcəji məsələsi daha sakit şəraitdə müzakirə edilə bilərdi. Həqiqətdə də Beq (Polşanın xariçi işlər ministri) mayın 5-də demişdir ki, əgər Germanija sülh nijjətindədirsə və sülh yolu ilə müzakirə məsələlərini qəbul edirsə, hər çür danışıq aparmaq mümkündür. Hitler aprelin 28-də rejxstaqda söylədiji nitqində demişdir ki, əgər Polşa hökuməti Germanija ilə onun münasibətini qajdaja salan jeni saziş bağlamağa hazırdırsa, belə bir idejanı alqışlaja bilər. Sonra Hitler əlavə etmişdir ki, gələcəkdə hər bir bu çür saziş, hər iki tərəfi bərabər dərəcədə əlaqələndirən olduqça ajdın təəhhüdlərə əsaslanmalıdır.

Ingiltərə hökuməti hesab edir ki, Dansiqdə baş verən son hadisələr e'timadı pozmuşdur və hazırda aqıllılıq səsinin üstün ola biləcəji bir atmosfera jaradılmasını cətinləşdirmişdir.

Belə bir şərait qarşısında Polşa hökuməti sakit durmuşdur. Ingiltərə hökuməti ümmid edir ki, Dansiq özünün köhnə tradisijaları ilə keçmişdə olduğu kimi jenə sübut edə bilər ki, müxtəlif millətlərin nümayəndələri real interesləri bir-birinə ujğun gəldikdə bir jerdə işləjə bilərlər. Ejni zamanda mən ümmid edirəm ki, əlaqədar tərəflər, Dansiqlə əlaqədar olan insidentlərin Jevropada sülh üçün qorxu törədə biləçək xaraqter almasına jol verməjəcəklərini söylərlər və bunun üçün qəti hərəkət edərlər».



Üçüncü Stalin Beşillijinin tikinti ləri.

Jaxın günlərdə Rostov tresti «Eleqtro» olxovoj çayı üzərində Qaşarı kəndi janında böyük gidrotexniq düjümü tikilişinə başlajaçaqdır. Burada platina qojulaçaqdır ki, bunun vasitəsilədə 22 million kub metroluq jazlıq su anbarı əmələ gəlir. Bu, bütün il uzunu çayın jüksək sövvijjəsini saxlamaqla qolxoz bostanlarını və çəltik əkinlərini suvarmağa imkan verir. Platina janında rajon mərkəzi «qaşarın» və beş qolxozu eleqtrikləşdirmək üçün hidro-eleqtrostansija tikiləçəkdir. Platinanın özü salınmaqda olan Millerovo— Veşenskaja dəmir jolu üçün keçiriləçək bəndi əvəz edəçəkdir. Hidro düjümün projeqti çavan inżener M. Q. Cujqovadır.

Şəkildə: Gidroeleqtrostansijasın ın projeqti. (TASS-ın fotoxroniqası).

# Nor Bajazeddə triqotaż fabriqası

Nor Bajazed (ETA).— Özünün istehsalat planını müvəffəqijjətlə jerinə jetirən çorab fabriqasının işə salınmasından sonra, Nor Bajazeddə triqotaż fabriqası tikmək məsələsi də hazırlanmışdır. Həmin məqsəd üçün ajrılmış bina tə'mir və təçhiz edilmişdir; burada triqotaż toxumaları istehsal edən 8 maşına təçhiz edilmişdir. Fabriqada majqalar, çemərlər, fajqalar və başqa toxumalar istehsal ediləçəkdir.

Bir neçə gün bundan əvvəl fabriqada təçrübə işlərinə başlanmışdır. Fabriqa tamamilə işə salındıqdan sonra təqribən üç jüz fəhlə çalışaçaqdır. Kejfijjətli qadrlar hazırlamaq üçün fabriqa Leninaqan Teqstil kombinatına 8 nəfər göndərmişdir.

---o---

# Ymumittifaq fizqultura gyny ərəfəsində

18-ijulda Moskvada dünjanın ən xoş vaxt gənclərinin-sovet fizqulturniqlərinin parlaq paradı keçirildiji kimi, Ermənistan respubliqasında da keçiriləçəkdir.

Spandarjan rajonunun Fizqultura və Sport İşləri komiteti 18 ijulda Jerevanda kütləvi fizqultura çıxışları və sport jarışları təşkil edərək, bütün işləri fizqultura təşkilatlarının kütləvi surətdə artması, fizqulturniqlər arasında Üçüncü Stalin Beşilliji adına sosializm jarışının daha da genişləndirilməsi jolu ilə aparaçaqdır.

Ymumittifaq fizqultura günü-18 ijulda Lenin mejdancasında motoproveq və hərbiləşdirilmiş estafeta olaçaqdır. Bundan başqa Tbilisidə volejbol jarışları, Axta rajonunda futbolistlər sərgisi və Jerevan Lenin mejdancasında boqs və qimnastiqa üçün olaçaqdır. 18 ijulda Tbilisidə keçiriləçək volejbol jarışlarında Ermənistanın adlı-sanlı futbolistlərindn Fjoedro iştirak edəçəkdir.

Spandarjan rajon fizqult komiteti, Ymumittifaq fizquturniq gyny şərəfinə 100 nəfər böyük jaşlı, 50 nəfər məktəblilərdən birinci dərəcəli və iki nəfər isə II dərəcəli döş nişanı normasını 100 prosentlə verən fizqulturniqlər hazırlamışdır. Bunların arasında öz görkəmli işləri ilə ad qazanmış Hraciq Marqarjan və Fjodr joldaşlarda vardır.

Spandarjan rajon fizqultura komiteti, fizqultura işini möhkəmləndirmək və fizqultura işində teorija ilə praqtiqanı əlaqələndirmək üçün rajonda 60 jerdə qranad dərnəkləri açıbdır ki, bu dərnəklərdə 1.200 nəfər fizqulturniqlər iştirak edir.

Spandarjan rajon fizqultura komiteti SSRI XQS-nin fizqultura təşkilatları haqqında çıxartdığı 16 ijun 1939-cu il tarixli qərarı ilə silahlanaraq Ymumittifaq fizqultura gyny 18-ijula hər tərəfli hazırlaşmışdır.

Q. Şahbazov

---o---

# Ikinci jarımillijin istehsalat planlarının jerinə jetirilməsini tə'min etməli və zavod-fabriqa marqası uğrunda mübarizə etməlidir

Leninaqanın bir sıra zavod və fabriqaları və idarə müəssisələri birinci jarımillikdə böyük müvəffəqijjətlər əldə etmişlər.

Çqalov adına Tikiş fabriqası 1939-cu ilin altı ajlıq istehsalat planını 102,6 prosent jerinə jetirmişdir. Fabriqanın staxanovcuları və zərbəçiləri (1926-27-ci illərin dəjişilməz qijmətlərilə) planda nəzərdə tutulmuş 2.550 min manat əvəzinə 2.591.300 manat qijmətində produqsija vermişdir. Bundan başqa 64.000 manat qijmətində cox işlədilən produqsija verilmişdir.

Istehsalat planlarının artıqlığı ilə jerinə jetirilməsi işində ajaqqabı fabriqasında cox böyük nailijjətlər əldə edilmiş və həmin fabriqada 6 ajlıq plan ijunun 27-də jerinə jetirilmişdir. Planda nəzərdə tutulmuş 80.000 çüt ajaqqabı əvəzinə fabriqada 83.537 çüt ajaqqabı hazırlanmışdır. Taxta-şalban fabriqası birinci jarımillik planı ijunun 25-də 107 prosent, cərək zavodu isə jarımillik planı müəjjən edilən müddətdən 19 gün əvvəl 101 prosent jerinə jetirmişdir. Teqstil kombinatının köhnə əjirmə fabriqası 1.060.752 kiloqram sap əvəzinə 1.770.886 kiloqram sap istehsal edərək, birinci jarımillik planı ijunun 29-da 101 prosent jerinə jetirmişdir. Tomet zavodu birinci jarımillik planı 104 prosent, pivə zavodu 108,3 prosent, əhənk zavodu isə 101,3 prosent jerinə jetirmişdir və i. a.

Üçüncü Stalin Beşilliji adına sosializm jarışı ərzində Leninaqan zavodlarında jeni staxanovcular və zərbəcilər əmələ gəlmişdir ki, onlar elkəmizə miqdarça cox və kejfijjətli produqsija vermək uğrunda mübarizə edirlər.

Mexanik zavodunun qrovat sexinin qabaqçı staxanovcusu Nişan Gevorqjan joldaş birinci jarımillik planının 406 prosent, Armenaq Qurgenjan isə 377 prosent jerinə jetirmişdir. Ajaqqabı fabriqasında işləjən 324 fəhlədən 140 nəfəri staxanovcudur ki, onlar 6 ajlıq planı 150-200 prosent jerinə jetirmişlər. Tikiş fabriqasının staxanovcusu Marusija Peşnaja birinci jarımllik planı 170 prosent, Marjam Çlazarjan isə 160 prosent jerinə jetirmişdir. Taxta-Şalban fabriqasından Mesrop Hovhannesjan və Hrajr Nazaretjan öz planlarını 140-150 prosent jerinə jetirmişlər.

Lakin qejd etmək lazımdır ki, Sovet Ittifaqı Sənajei üçün həlledici əhəmijjətə malik olan teqstil kombinatı kəsirləri ödəjə bilmədi. Köhnə əjirmə fabriqası müstəsna olaraq, Teqstil kombinatının jerdə qalan bütün fabriqaları elkəjə böyük miqdarda produqsija borçlu qalmışlar. Bu jalnız onunla izah olunur ki, kombinatın direqtoru S. Arakeljan, birləşmiş partija bürosunun katibi O. Harutjunjan və fabriqa-zavod komitetinin sədri Q. Niqoqosjan istehsalat üzərində operativ rəhbərliji tə'min edə bilməmişlər.

Teqstil kombinatında əmək intizamı hələ üksək dərəcəja çatdırılmamış, işlər pis təşkil edilmişdir. Jalnız ijun ajında jeni əjirmə fabriqasında maşınların prostoju 34 prosent, köhnə əjirmə fabriqasında 17 prosent, toxuçuluq fabriqasında isə 40 prosent təşkil etmişdir.

1939-cu ilin birinci jarım illijində triqotaż fabriqasının istehsalat planları da jerinə jetirilməmişdir (direqtor Niqol Avetisjan joldaşdır). Fəhlə qüvvəsinin çatışmaması, həmcinin bir sıra texniki noqsanlar nəticəsində triqotaż fabriqasında gündə 1.200 maşın-saat prostoj olur.

Leninaqan fabriqalarında birinci jarımillikdə produqsijanın kejfijjətinin üksəldilməsi məsələsində də vəzijjət jaxşı dejildir. Qejd etmək lazımdır ki, teqstil kombinatının rəhbər işçiləri Leninqrad Sverdlov adına zavodun fəhlələrinin caqrışını kütləviləşdirmək sahəsində bugünə kimi hələ hec bir iş görməmişlər və həmin qabaqçı zavodun nümunəsilə produqsijanın kejfijjətinin üksəldilməsi, sovet fabriqalarının marqası uğrunda mübarizə təşkil etməmişlər. Məsələn toxuçuluq fabriqaları 1939-cu ilin janvar ajında 19 prosent, fevral ajında 18,9 prosent, mart ajında 12,8 prosent, aprel ajında 11,2 prosent braq produqsija vermişlər, maj ajında isə plan jalnız 57,6 prosent jerinə jetirilərək, 12,1 prosent braq produqsija verilmişdir. Jalnız ijun ajında teqstil kombinatı 107 min 300 metr braq produqsija vermişdir.

Tikiş fabriqasında fabriqa marqası uğrunda çiddi mübarizə aparılmır. Qejd etmək kifajətdir ki, jalnız 1939-cu ilin 5 ajı ərzində Tikiş fabriqası 17.900 manatlıq braq produqsija vermişdir.

Ajaqqabı, Triqotaż və Taxta-Şalban fabriqalarında, həmcinin pivə zavodunda daxi fabriqa marqası uğrunda mübarizə genişləndirilməmişdir.

Biz indi Üçüncü Stalin Beşilliji ilinin son və qəti jarımillijinə qədəm qojmuşuq. Fabriqa və zavodların rəhbər işçiləri və bütün fəhlələr nəinki jalnız ikinci jarımillijin istehsalat planlarını jerinə jetirməli, hətta birinci jarımillijin kəsirlərini də ödəməlidirlər.

Üçüncü Stalin Beşilliji adına ümumxalq sosializm jarışını daha da genişləndirməklə, 1939-cu ilin istehsalat tapşırıqlarını jerinə jetirilməsini tə'min etmək lazımdır.

Ispir Hovhannesjan

# Ymumittifaq „Fizqulturniqlər gyny" ilə əlaqədar olaraq, Ermənistan SSR XQS janında Fizqultura İşləri Qomiteti tərəfindən görüləçək tədbirlərin PLANI

| Keçiriləçəji vaqt | NƏZƏRDƏ TUTULMUŞ TƏDBIR | Keçiriləçəji jer | Kim Keçiraçək |
|---|---|---|---|
| 17—18/VII | Yürmək üzrə respubliqa jarışları | «Spartaq»ın hovuzunda | Xalq Maarif Qomissariatı Qomiteti |
| 16—18/VII | Velosiped üzrə (şosse) 300 kilometr respubliqa jarışları | Jerevan | Fizqult qomiteti |
| 18/VII | Tbilisi—Jerevan şəhərləri arasında futbol matçı | «Dinamo» stadionu | » |
| 18/VII | Bakı—Jerevan şəhərləri arasında valejbol matçı | «Tikiçilər» Velodromu | » |
| 18/VII | Qolxoz futbol qomandalarının matçı | «Spartaq»ın stadionu | «Qolos» çəmijjəti |
| 18/VII | Daqlıq rajonlarına hərbiləşdirilmiş moto—jürüşü | Respubliqada | FQ qomiteti və avtomoto qlub |
| 15—18/VII | Ulduz şəkilli velo—estafeta (bütün rajonlar) finiş Jerevan | » | FQ Qomiteti |
| 18/VII | Jüngül atletiqa üzrə 5x1000.3x500, 4x1000 tradision estafetanın keçirilməsi | «Dinamo» stadionu | » |
| 18/VII | Jerevan şəhərində kütləvi velosiped jarışları | Şəhərdə | FQ Kirov rajon qomiteti |
| 18/VII | Jerevan şəhəri rajonlarının (Stalin, Spandarjan, Kirov rajonları) müxtəlif qomandalarının hərbiləşdirilmiş estafetası | » | FQ qomiteti |
| 7—11/VII | Bakı, Kijev və Jerevan şəhərləri məktəblilərinin şahmat üzrə güşü | » | » |
| 18/VII | «Dinamo», «Spartaq» ordenli çəmijjətlərinin və Stalin rajonunun sport—fizqultura gəzintiləri, müşavirələri | » | «Spartaq» «Dinamo» respubliqa sovetləri və Stalin rajonu FQ qomiteti |
| 16/VII | Leninaqanda L. P. Berija adına parqda fizqultura gəzinti—müsamirələri | Leninaqan | Leninaqan şəhər FQ qomiteti |
| | Kirovaqan şəhər parqında fizqultura müsamirəsi | Kirovaqan | Kirovaqan |
| 18/VII | Rajon mərkəzlərində müsamirələr—gəzintilər | Jerlərdə | Rajon fizqult qomitetləri |
| 16/VII | Ermənistan SSR fizqultura təşkilatlarının foto—vitrinası | Jerevan | XQS janında FQ qomiteti |
| | Ajrı-ajrı sport növləri üzrə qomandaların rajon mərkəzlərinə getməsi | Xüsusi plan üzrə | |

# ARTIQ SEMENT UĞRUNDA MÜBARIZƏ

Ararat, S. Orçonikidze adına sement zavodu birinci Stalin beşilliji ərzində tikilmişdir. O, SSRI-da birinci beşillik ərzində tikilmiş 518 gigantlar sırasındadır.

Keçmişdə Ararat sement zavodunda illər boju juva'salmış xalq düşmənləri zavodun işlərini proval edərək sement istehsalı planının jerinə jetirilməsinə mane' olurdular. Bunun nəticəsində də zavod işə salındığı gündən taki 1938-ci ilin başlanğıcınadək öz planlarını jerinə jetirə bilmirdi.

Xalq düşmənləri ifşa və darmadağın edildikdən sonra zavodda işlər qajdaja salındı.

Lakin, görünüşə görə, zavodun rəhbər işçiləri (direqtor Andraniq Caxqaljan, partija bürosunun katibi A. Xərratjan, fabriqa-zavod komitetinin sabiq sədri Q. Manuşjandır) 1938-ci ildə əldə edilmiş müəjjən müvəffəqijjətlərlə arxayınlaşaraq, sement istehsalı üzrə 1939-cu il planının jerinə jetirilməsi, staxanov hərəkatının genişləndirilməsi və jeni istehsalat üksəlişi uğrunda bolşevik mübarizəsini genişləndirməmişlər.

Zavod 1939-cu ilin birinci qvartal planını, həmcinin aprel və maj ajları planlarını jerinə jetirməmişdir.

Zavod maj ajı planını mayın 26-nadək, qlinqer jandırma planını 56,2 prosentlə, sement üjütmə planını 56,8 prosentlə və sement daşıma planını isə 78,8 prosentlə jerinə jetirmişdir.

Zavodun rəhbərləri planların jerinə jetirilməməsini kömürün çatışmaması ilə izah etməjə çalışırlar. Lakin çəsarətlə qejd etmək lazımdır ki, kömürün çatışmaması qəti olaraq planların jerinə jetirilməməsinə səbəb ola bilməz. Planların jerinə jetirilməməsi zavodda olan bir sıra ujğunsuzluqlarla izah olunur ki, həmin ujğunsuzluqların aradan qaldırılması üçün nə zavodun direqsijası, nə partija-qomsomol təşkilatları və nə də həmkarlar ittifaqı təşkilatları tərəfindən qonqret tədbirlər görülməmişdir.

Zavodun direqtoru A. Caxqaljan joldaş tərəfindən qadrlara jaxşı qajğı göstərilmir.

Budur zavodun növbədəjişən ustası, qommunist Varos Xacatrjan. Ona stazirovqa və premijal zəhmət haqqı çatmasına baxmajaraq, zavodun direqtoru onun tələbini rədd edir.

Qomsomolcu Mehti Məmmədov Xalisa partija təşkilatının tapşırığı üzrə 8 ajdan bəridir ki, zavodda pamol sexində melniq müavini olaraq çalışır. Lakin onun jaşça xırda olduğunu bəhanə edərək, (o 1921-ci ildə anadan olmuşdur) onu həmin sexdən azad edirlər. Mehti Məmmədov sexdə çalışan digər fəhlələrin deməsinə görə, ən jaxşı işləjən fəhlələrdən biridir.

Zavodun direqtoru Caxqaljan joldaş, fəhlələrə 1938-ci ildə veriləçək premijal zəhmət haqqının və jaqı vermə'mişdir. Bütün bu faqtlar fəhlələr arasında narazılıq əmələ gəlməsinə və onların başqa işə getmələrinə səbəb olur.

SSRI Xalq Qomissarları Soveti, YIQ(b)P Mərkəzi Qomiteti və YIHI Mərkəzi Sovetinin 1938-ci il 28 dekabr tarixli qərarından sonra da, zavodun direqsijası, partija-qomsomol və həmkarlar ittifaqı təşkilatları zavodda əmək intizamının üksəldilməsi uğrunda həqiqi mübarizə təşkil etməmişlər. Bu tarixi qərardan sonra da işə geçikmələr və proqullar zavodda bir sistem olaraq davam edir.

Budur faqtlar. 1939-cu ilin 6 ajı ərzində 125 fəhlə proqul etdikləri üçün, işdən xariç edilmişlər. Bundan başqa bu müddət icərisində 164 fəhlə üçün şərait jaradılmadığından onlar başqa işə getmişlər.

Qejd etmək lazımdır ki, Ararat sement zavodunda fəhlələr arasında böyük işçi axını vardır. Bu ilin janvar-maj ajları ərzində zavoda işləmək üçün 127 nəfər gəlmiş və həmin müddət ərzində zavoddan 148 nəfər getmişdir. Fəhlələr arasındakı axına qarşı mübarizə etmək və qadrları-fəhlələri zavoda təhkim etmək əvəzinə zavodun direqsijası fəhlələrin zavoddan getmələrinə səbəb olur. Zavodun həqiqətdə fəhlə qüvvəsinə ehtijaçı vardır.

Alovlu bolşevik S Orçonikidzenin şanlı adını daşıjan Ararat sement zavodu planları jerinə jetirmək və staxanov hərəkatını genişləndirmək üçün bütün imkanlara malikdir.

Vedi rajon partija komiteti və rajon icraijjə komiteti sement zavodunun işləri ilə dərindən maraqlanmalı və zavoda operativçəsinə rəhbərlik etməlidirlər.

Gevorq Çlazarjan

# Jalancı şahidlər cəzalandılar

Alaverdi rajonunun 2-ci xalq məhkəməsi cənajət qodeqsinin 119-cu maddənin 2-ci bəndi ilə müqəssir Şaqarjanın işində jalancı şahidlik etdiklərinə görə Mazutjan Vartuş və Mazutjan Amiqanın hərəsinə bir il müddət müqəssir iş vermişdir.

Ali məhkəmənin cənajət qollegijası qasasija təriqilə verilmiş işə baxaraq, Alaverdi rajonunun 2-ci xalq məhkəməsinin qararını təsdiq etmişdir.

J. B.

# Abaran rajon qolxoz məktəbi 22 nəfər təsərrüfat qadrları buraxmışdır

Abaran rajon qolxoz məktəbi 1936-cı ildən təşkil edilmişdir. Həmin məktəbdə heyvandarlıq və tərlaçılıq çərçivəsində işləjən kejfijjətli qadrlar hazırlanırlar.

1938-39-cu dərs ilində rajon qolxoz məktəbini 22 nəfər agro- və zootexniq qadrlar buraxmışdır.

Rajon torpaq şö'bəsi məktəbdən jeni buraxılanları rajonun qolxozlarında işə tə'jin etmişdir.

H. Zirojan

---o---

# „Qommunist"-in köməji ilə

Qrasnoselo rajon proqurorunun redaqsijamıza bildirdiji kimi, Qrasnoselo rajon Aqbulaq kənd tam olmajan orta məktəb direqtoru Ismajıl Qasımov vəzifəsindən istifadə edərək məktəbdə bir cox mənimsəmələr və proqullarına himajə etməsi haqqında olan «Qasımov ifşa edilməlidir» sərlövhəli müxbir materialı joxlanışda tamamilə doğru çıxmışdır. İş rajon xalq məhkəməsinə verilmişdir.

***

Basarkeçər rajon proqurorunun redaqsijamıza bildirdiji kimi, Çanəhməd kənd qolxoz hejətinin jarıtmaz işi nəticəsində jaz əkin qampanijasında kütləvi izahat işlərinin zəif olması, toxumların İsmi Ələkbər oğlu, Imaməli Hümmət oğlu tərəfindən oğurlanması barədə «Qolxoz zijancılarına çiddi məs'ulijjətə almalı» sərlövhəli müxbir materialı joxlanışda doğru çıxmışdır.

Qolxozun işləri joxlanılaraq, müqəssirlər məhkəməjə verilmişdir.

***

Qrasnoselo rajon proqurorunun bildirdiji kimi, Nadezdina jarım rajon kooperativ hejətində, kooperativ işçiləri və hesabdarı tərəfindən böyük miqdarda mənimsəmələr olduğu, pul mənimsəjənlər cəzalanmaq əvəzinə qabaqa çəkilib mərkəzi jerləri tutduqları barədə «İlk noqsanlara nəhajət verməli» sərlövhəli müxbir materialı joxlanışda doğru çıxmışdır.

Kooperativ pulunu mənimsəjənlər: Jeqazarjan, Proxova, Həsənov və hesabdar Geqam məhkəmə məs'ulijjətinə alınmışlar.

Müvəqqəti məs'ul redaqtor: Ə. RIZAJEV

Kino «Mosqva» bugün
1-ci zalda Revoljusion səsli film
ÇAPAJEV
2-ci zalda səsli, müdafiə filmi
ÇƏBHƏ və ARXA
Seansların başlanışı axşam saat 8½-da və 10½-da
26-LAR ADINA BAQI DAQ MARŞI
Başlanış axşam saat 9-da və 10½-da

Ermənistan SSR Xalq Qomissarları Sovetinin nəşrijjatı «Xorhrdajin Hajastan» mətbəəsi. Redaqsijanın adresi: Jerevan Onunjans küçəsi № 23 telefon № 33-30 Baş mətbuat müdirliji müvəkkili Ə—4228